**“Koronavirus (COVID-19) pandemiyasının ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması üçün sahibkarlıq subyektlərinin kreditlərinə dövlət dəstəyinin verilməsi ilə bağlı bir sıra tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 9 iyul tarixli 249 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 9 iyul tarixli 249 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, 7, maddə 979, 10, maddə 1279, 12 (V kitab), maddə 1581) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Koronavirus (COVID-19) pandemiyasından zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin mövcud kredit portfeli üzrə kredit faizlərinin subsidiyalaşdırılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-ci bəndə “12 (on iki) ay” sözlərindən sonra “(ərzaqlıq buğda təchizatçılarına münasibətdə 24 (iyirmi dörd) ay)” sözləri əlavə edilsin.

2. 3.4-cü bəndə “12 (on iki) aydan” sözlərindən sonra “(ərzaqlıq buğda təchizatçılarına münasibətdə 24 (iyirmi dörd) aydan)” sözləri əlavə edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 13 sentyabr 2021-ci il
266